

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 154 (23.065)

16 avqust 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən kollegiya iclasını nazir Rəhman Məmmədov açaraq məruzə edib.*

Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 4-də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə payız-qış mövsümündə təhsil müəssisələrinin fasiləsiz fəaliyyətinin təmin olunması, yaradılan müasir təhsil infrastrukturlarının qorunması və onlardan səmərəli istifadə edilməsi barədə bir sıra tapşırıqlar verilib.

Vurğulanıb ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Aparılan təhsil quruculuğu təkcə rayon mərkəzlərini deyil, eyni zamanda ucqar dağ kəndlərini də əhatə edib ki, bu da tədrisin yüksək səviyyədə təşkilinə əlverişli şərait yaradıb.

Tikilən və ya əsaslı şəkildə yenidən qurulan təhsil müəssisələrinin binaları müasir istilik sistemi ilə təchiz olunub, bu da payız-qış mövsümündə həmin müəssisələrin fasiləsiz fəaliyyətini təmin edir. 2018-ci ildə aparılan tikinti-quruculuq işləri başa çatdıqdan sonra şəhər və rayon təhsil şöbələri də daxil olmaqla, ümumilikdə, 239 təhsil müəssisəsi istilik sistemi ilə işləyəcəkdir. Ötən il təhsil müəssisələrinin 85 faizində istilik sistemi mövcud idisə, bu il təhsil quruculuğu sahəsində aparılan işlərin nəticəsində bu göstərici 91 faiz təşkil edir.

Hazırda istilik sistemi quraşdırılmayan təhsil müəssisələrinin sayı 25-dir. 2018-2019-cu tədris ilinin payız-qış mövsümündə bu təhsil müəssisələrində tədrisin fasiləsizliyini təmin etmək üçün yanacaq, mal və materiallara olan tələbat müəyyənləşdirilib.

Qeyd olunub ki, yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərin də sayının artmasına səbəb olub. Belə ki, 2018-2019-cu tədris ilində muxtar respublikada fəaliyyət göstərəcək 215 ümumtəhsil məktəbindən 208-i, yaxud 97 faizi birnövbəli rejimdə işləyəcəkdir. Bu da, öz növbəsində, tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə töhfə verəcəkdir.

Muxtar respublikanın təhsil müəssisələrində istilik sistemlərinə 363 nəfər nəzarət edir ki, onların da 314-ü müvafiq sertifikatı olanlardır. Digər 49 nəfər isə sertifikat almaq üçün payız-qış mövsümünə qədər müvafiq kurslara cəlb ediləcəkdir. Yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməsi, məktəblərdə elektrik enerjisindən səmərəli istifadə olunması, israfçılığa yol verilməməsi məqsədilə maarifləndirici söhbətlər aparılacaqdır.

Təhsil naziri bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında Təhsil Nazirliyi və aidiyyəti orqanların nümayəndələrinin iştirakı ilə təhsil müəssisələrinin yeni tədris ilinə hazırlığı ilə bağlı reydlər aparılıb. Reydlər zamanı təhsil müəssisələrinin binalarının saxlanılması ilə yanaşı, istilik sistemlərinin mövcud vəziyyəti də araşdırılıb, bir sıra nöqsanlar aşkar edilib. Hazırda mövcud nöqsanların aradan qaldırılması istiqamətində işlər davam etdirilir.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *



Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Şahbuz Rayon İcra Hakimiyyətində də müşavirə keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev məruzə ilə çıxış edərək qeyd edib ki, payız-qış mövsümünə hazırlıq istiqamətində rayonda nəzərdə tutulmuş tədbirlərin icrasına başlanılıb.

Aparılan abadlıq-quruculuq tədbirlərində bütün sahələrlə yanaşı, əhalinin qış aylarında rahatlığının təmin edilməsi üçün də lazımi şərait yaradılıb. Rayon mərkəzində fəaliyyət göstərən 49 idarə, təşkilat və müəssisənin yerləşdiyi inzibati binalardan 44-ü, həmçinin şəhər, qəsəbə və kəndlərdə, ümumilikdə, 23 yaşayış məntəqəsində fəaliyyət göstərən təşkilatların yerləşdikləri binalar müasir istilik sistemi ilə təmin edilib. Həmçinin rayon ərazisindəki 23 tam orta məktəbdən 22-si, 5 məktəbdənkənar təhsil müəssisəsindən 3-ü, 23 səhiyyə müəssisəsindən 22-si, 58 mədəniyyət müəssisəsindən 52-si müasir istilik sistemi ilə qızdırılacaq.

Vurğulanıb ki, rayonda quruculuq, abadlıq işlərinə göstərilən qayğının nəticəsində Şahbuz şəhərində bütün ictimai yaşayış binaları əsaslı surətdə təmir edilib. Qış mövsümünə hazırlıqla əlaqədar həmin binaların bütün kommunikasiya xətlərinə baxış keçirilib, nasazlıqların aradan qaldırılması üçün müvafiq işlərə başlanılıb.

Muxtar respublikamızda yol şəbəkəsinin müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsinin nəticəsidir ki, 24 yaşayış məntəqəsindən 23-nün yolu əsaslı təmir edilərək yenidən qurulub, asfalt örtük salınıb, nəqliyyatın rahat hərəkəti təmin edilib.

İcra başçısı qeyd edib ki, rayon əhalisinin elektrik enerjisinə olan tələbatını yaxşılaşdırmaq məqsədilə 2018-ci ilin ötən dövrü ərzində 4677 abonentə xidmət göstərilib, müvafiq təmir-bərpa işləri aparılıb.

Diqqətə çatdırılıb ki, abadlıq-quruculuq tədbirlərinin keçirildiyi Şahbuz şəhərində, Badamlı qəsəbəsində, eləcə də ayrı-ayrı yaşayış məntəqələrində lazımi yerlərdə təbii qaz xətləri yenidən işlənib, 7 yeni tikilmiş fərdi evə, 1 sosial obyektə təbii qaz xətti çəkilib, istismara yararsız 16 ədəd qaz sayğacı yenisi ilə əvəz edilib. Həmçinin 3605 abonentin qaz sayğacı müvafiq qutulara yerləşdirilib. Ötən 7 ayda 4 milyon 768 min 485 kubmetr təbii qazdan istifadəyə görə 609 min 436 manat vəsait toplanıb, yığım 100,7 faiz yerinə yetirilib.

Bildirilib ki, rayon əhalisinə göstərilən rabitə xidmətinin səviyyəsi daha da yaxşılaşdırılıb, bütün yaşayış məntəqələri müasir rabitə sistemi ilə əhatə olunub. 2018-ci ilin ötən dövrü ərzində 22 ATS və 19 poçt vasitəsilə 3720 abunəçiyə xidmət göstərilib. Şahbuz şəhərində, Külüs, Biçənək, Şahbuzkənd və Keçili kəndlərində 7500 metr məsafədə daxili xətlərdə təmir işləri aparılıb, 50 yeni rabitə dayağı quraşdırılıb. Şahbuz-Biçənək kənd optik kabelinin Kolanı kəndi ərazisindən keçən yararsız hala düşmüş hissəsi, Biçənəkdəki kənddaxili magistral xətt, Badamlı qəsəbəsində ictimai yaşayış binalarının rabitə kabelləri, Keçili, Qızıl Qışlaq, Kükü, Aşağı Qışlaq və Yuxarı Qışlaq kəndlərində magistral rabitə xətləri təmir-bərpa edilib. Ötən 7 ayda 179 min 482 manat həcmində rabitə xidməti göstərilib, 41 yeni telefon nömrəsi istifadəyə verilib.

Qeyd olunub ki, payız-qış mövsümündə də əhalinin içməli suya olan tələbatı da diqqətdə saxlanılıb, Şahbuz şəhəri, Daylaqlı və Kiçikoba kəndlərinin içməli suya olan tələbatı tamamilə ödənilib. Şahbuz şəhərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemindəki xətlərə baxış keçirilib, Ayrınc, İşgəsu içməli su xətlərində kaptajların 280 metr, Şahbuz şəhərindəki, Badamlı, Kolanı, Mahmudoba kəndlərindəki subartezian quyularının təzyiqli boru xətlərində, ümumilikdə, 3,4 kilometrə yaxın məsafədə təmir işləri aparılıb.

İcra başçısı vurğulayıb ki, göstərilən hərtərəfli dövlət qayğısına cavab olaraq qış aylarında baş verə biləcək problemlərin qarşısının alınması üçün bütün imkanlardan istifadə ediləcək.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikasında əhalinin etibarlı ərzaq təminatı iqtisadi siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir. Belə ki, bitkiçilik sahəsinə aid olan taxılçılıq təsərrüfatı bütün kənd təsərrüfatının əsasını təşkil edərək əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlıqda qüvvəli və qaba yem ehtiyatının əldə edilməsində mühüm rol oynayır. Bu baxımdan taxılçılıq təsərrüfatının inkişafına diqqətin artırılması mühüm məsələ kimi qarşıya qoyulmuşdur.*

## Taxılçılığın inkişafı əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır



Muxtar respublikada taxıl məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi cari ilin ötən dövrü ərzində də davam etdirilib. Torpağın şumlanmasından başlayaraq yetişdirilən məhsulun daşınmasına qədər bütün proseslər nəzarətdə saxlanılıb. Yeni texnikaların gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin aparılması hesabına hər il əvvəlki illə müqayisədə daha çox taxıl məhsulu əldə olunur.

Həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, 2018-ci ilin məhsulu üçün 32 min 483 hektar sahədə taxıl əkilib. Bunun da 30 min 925 hektarı payızlıq, 1558 hektarı yazlıq taxıldır. Taxıl zəmilərinin 22 min 632 hektarında buğda, 9851 hektarında isə arpa əkilib.

Aqrar sektorda həyata keçirilən dövlət dəstəyi tədbirləri öz uğurlu nəticəsini verir, bu isə kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünətəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olur. Məhz bu baxımdan taxılın strateji məhsul kimi mühüm əhəmiyyəti nəzərə alınaraq 2000-ci ildən ötən müddət ərzində taxılçılıqla məşğul olan 124 sahibkarlıq subyektinə 794 min 400 manat məbləğində dövlət maliyyə dəstəyi göstərilib.

Strateji əhəmiyyətli məhsulun tədarük olunub keyfiyyətlə saxlanılması istiqamətində həyata keçirilən tədbirlər diqqət mərkəzindədir. Muxtar respublikada fəaliyyət göstərən və gündəlik istehsal gücü 442 ton olan taxıl emalı müəssisələrinə iyun-iyul aylarında 4410 ton taxıl tədarük edilib. Qeyd edək ki, "Naxçıvan Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl anbarında yerli tədarükdən əlavə 5129 ton taxıl ehtiyatı mövcuddur.

Un və un məhsullarının keyfiyyəti də daim nəzarətdə saxlanılıb və bu müddət ərzində 511 halda, o cümlədən 279 çörək, 181 halda unlu qənnadı məhsulları, 41 halda un, 5 halda buğda, 5 halda kəpək nümunəsi götürülərək laboratoriya müayinələrindən keçirilib. Bu cür məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində həm taxıl tədarük edilərək ehtiyat yaradılır, həm də un istehsal olunaraq muxtar respublika əhalisinin una və çörəyə tələbatı ödənilir.

Qeyd edək ki, əhalinin taxıl və çörək məhsullarına olan tələbatının daxili istehsalla ödənilməsi Ali Məclisin Sədri tərəfindən vacib məsələ kimi qarşıya qoyulub. Ona görə də taxılçılığın inkişafı istiqamətində aparılan işlər bundan sonra da davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Əmək pensiyalarının poçt bölmələri tərəfindən ödənilməsi uğurla aparılır

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiyaların ödənilməsində mütərəqqi forma və metodların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Buna görədir ki, pensiyaçılara daha yüksək səviyyədə xidmət göstərilməsi üçün pensiyaların həm plastik kartlarla, həm də pensiyaçıların ərizələrinə əsasən yaşayış yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi işi lazımi səviyyədə təşkil edilib.*



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan aldığımız məlumata görə, 2018-ci ilin ilk 6 ayı ərzində əmək pensiyalarının plastik bankomat kartları ilə ödənilməsi üçün müvafiq işlər davam etdirilib, plastik bankomat kartı ilə pensiyasını almaq istəyən bütün növ əmək pensiyaçıları plastik bankomat kartları ilə təmin edilib. Bundan əlavə, əmək pensiyaçılarının istəkləri nəzərə alınmaqla 229 nəfər əmək pensiyaçısının pensiyası poçt bölmələri vasitəsilə ödənilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kənd yerlərində yaşayan pensiyaçıların istəkləri nəzərə alınaraq pensiyaların yerli poçt bölmələri vasitəsilə ödənişinin həyata keçirilməsi barədə verdiyi tapşırıqların icrası məqsədilə 2018-ci il yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin rayon filialları arasında müqavilə imzalanıb. Müqaviləyə əsasən kənd yerlərində yaşayan pensiyaçıların müraciəti əsasında pensiyaların yerli poçt bölmələri tərəfindən də ödənişi həyata keçirilir.

**Gülcamal TAHİROVA**

## Naxçıvan dünən

# Naxçıvanlılar düşmən qabağında əyilmirlər

İndi Sədərək od içindədir. Onun bahar çiçəkləri qana boyanıb. Erməni daşnakları bu dəfə Naxçıvanı hədəf seçiblər. Mayın 18-də daşnakların ordusu Sədərəyə hücuma keçdi. Onlar səhər 5-ə yaxın rus ordusunun əsgərləri ilə birlikdə dinc Sədərəyi güclü atəşə tutdular. 12 min əhalinin yaşadığı kənd səhəri döyüşlə qarşıladı. Kəndin qocaları, qadın və uşaqları təcili çıxarıldı. Günün birinci yarısınadək bir qadın və 3 nəfər milli ordunun əsgəri həlak oldu. 40 nəfərdən çoxu yaralandı. Naxçıvandan, Şərurdan, muxtar respublikanın digər bölgələrindən kömək gələnədək ermənilər mövqelərimizin bir neçəsini ələ keçirdilər. Hücum genişləndi. Lakin igid döyüşçülərimiz mərdlik göstərərək Ucubiz, Şeytan təpəsi postlarını geri almağa, düşmənin iradəsini qırmağa nail oldular. Bir-birindən qeyrətli oğullar canlarını Vətən yolunda qurban verirdi. Biz cəbhədə olarkən əli silah tutanların necə qəhrəmancasına vuruşduqlarının şahidi olduq. Erməni təcavüzkarları uzaqvuran toplardan və "Alazan" tipli raketlərdən Şərurun bir sıra kəndlərini, rayon mərkəzini atəşə tutmuşlar. Sədərəkdə top mərmisinə tuş gəlməyən ev, səhiyyə ocağı, məktəb binası qalmayıb. Toplardan və zirehli texnikalardan atılan mərmilərlə kəndin yolu, izi də tamam dağıdılıb.



Heydər Əliyevin xalqa televiziya ilə müraciəti qədim diyarın qeyrətli oğul və qızlarını Vətəni daha cəsarətlə qorumağa səslədi. Döyüşlərdə qələbə, inam əzmi gücləndirildi. Sədərək döyüşlərində bütün Naxçıvan diyarının qeyrətli, qolu bükülməz oğulları mərdliklə vuruşurdular. Biz Sədərəkdən ayrılanda ara-sıra atəş səsləri eşidilirdi. Şir ürəkli, dağ vüqarlı oğullarımıza dedik:

– Bizim işimiz haqq işidir. Biz mütləq qalib gələcəyik! Vüqarlı dağlarımızın ətirli çiçəkləri qana boyanıb. Şəhid qanına. Amma gələcəyə ümidlə baxan naxçıvanlılar düşmənin qabağında Əlincə qalası kimi möhkəm dayanmışdılar.

**Cəfər ƏLİYEV**
*"Şərq qapısı", 1992-ci il*

*Mərhum jurnalist Cəfər Əliyev bu sətirləri düz 26 il bundan əvvəl ürək yanğısı ilə qələmə alıb. O günlərdə bütün Naxçıvanın ürəyi Sədərəkdə döyünürdü, nigaran baxışlar oraya dikilmişdi. Əli silah tutan hər kəsin Sədərəyə yollandığı həmin vaxtlarda hamının arzusu, duası bir idi: Cəbhəyə gedənlərin sağ-salamat qayıtması və torpaqlarımızın, yenicə qazandığımız, hələ təzəcə daddığımız müstəqilliyimizin qorunması.*



## və bu gün

# Atalardan oğullara qalan ərməğan: sıx birlik, Vətən təəssübkeşliyi, yurda bağlılıq

Qanlı-qadalı döyüşlərdə xalq birliyi qeyrət qalasını qorudu. "Ermənilər Sədərəyə ancaq bizim meyitimizin üzərindən keçib gedə bilərlər",– deyən oğulların qanı ilə suvarıldı Vətən torpağı. Ulu öndərimiz Heydər Əliyevin ətrafında birləşən əhalinin sıx birliyi, Vətən təəssübkeşliyi, yurda bağlılığı Sədərəyi qorudu. Budur xalqımızın dəyanəti, budur vətənsevərlik, budur torpaq, yurd sevgisi. Həmin illərdə bunu təkcə mənfur ermənilər yox, bütün dünya gördü. Və bu həqiqət qədim oğuz yurdu, adı dastanlara sirdaş olan Sədərəyə bir ad da qazandırdı – Naxçıvanın qeyrət qalası.

Ermənilər 1990-93-cü illərdə 14 dəfə Sədərəyə hücum etsələr də, hər dəfə geriyə çəkilməyə məcbur qalıblar. O vaxtlar Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri işləyən görkəmli dövlət xadimi Heydər Əliyev Sədərəyi "Qeyrət qalası" adlandıraraq demişdir: ***"Muxtar respublika kəndləri dəfələrlə silahlı hücumlara məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsasən, ağırlıq Sədərəyin üzərinə düşmüşdür. Sədərəkdə vəziyyət tamam başqadır. Burada əsl müharibə gedir".***

Düşmənin biraddımlığındakı doğma yurdumuz, həqiqətən də, tarixboyu torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Çünki bu yurdun hər daşı sevgidən, Vətən məhəbbətindən, palçığı şəhid qanından yoğurulub. Bu yerdə vaxtilə çox müharibələr, qanlı qırğınlar olub. Ancaq yurdumuz qısa zaman ərzində qəddini dikəldə bilib, abadlaşıb yenidən gül-gülüstana çevrilib. Düşmənlərimiz yüz illər boyu bu torpaqlara sahiblənməyə çalışıblar, ancaq acı məğlubiyyətdən başqa heç nə əldə edə bilməyiblər. Odur ki, tarixin hər səhifəsində qədim oğuz yurdunun min-min salnaməsi var. Bu salnamələr bir yerə toplananda isə qədim diyar haqqında ümumi bir fikir formalaşır: Bura VƏTƏNDİR, bura doğma Naxçıvanın qeyrət rəmzi, yenilməzlik simvoludur!

### *Mühüm strateji əhəmiyyətə malik yurd yerimiz*

Əldə olunmuş arxeoloji materiallar sübut edir ki, Sədərək 7000-8000 il bundan əvvəl Naxçıvan ərazisinin əsas yaşayış yerlərindən və mühüm mədəniyyət ocaqlarından biri olub. Bir çox səyyah və tədqiqatçılar, o cümlədən Jak Şarden, Övliya Çələbi bu kənd haqqında





maraqlı məlumatlar veriblər.

Tarixi mənbələrdə adı çox çəkilsə də, bu qaynaqların heç birində "Sədərək" sözünün mənşəyinə toxunulmayıb. Ona görə də bu haqda müxtəlif ehtimallar yaranıb. Məsələn, xalq etimologiyasına görə, kənd üç çayın Çınaqçıçay, Cəhənnəmdərəsi və Bağırsaqdərənin əhatə etdiyi ərazidə yerləşdiyi üçün bura "se-dere" adı verilib və sonralar həmin söz Sədərək şəklinə düşüb. İkinci ehtimala görə, Sədərək sözü "sel gərək" birləşməsindən törəyib.

Xalq etimologiyasında olduğu kimi, müxtəlifsəpkili məqalə və kitablarda da "Sədərək" sözünün mənşəyinə ayrı-ayrı prizmalardan toxunulur. Belə ki, tanınmış alimlərdən Budaq Budaqov, Qiyasəddin Qeybullayev, Səfərəli Babayev və başqaları "Sədərək" sözünü "Kitabi-Dədə Qorqud"un "Uşun Qoca oğlu Səgrək boyunu bəyan edər" boyundakı Səgrək antroponimi ilə əlaqələndirirlər.

Tədqiqatlar sübut edir ki, Sədərək oğuzlara məxsus ad olub "Kitabi-Dədə Qorqud" dastanında adıçəkilən "Səgrək" şəxs adı əsasında yaranmış oykonimdir. Bunu qədim yurd-yeri olan Naxçıvan ərazisində vaxtilə mövcud olan Əyrək, Oğuz daşı (iki kənd), Bəydili kimi kəndlərin olması da Sədərək adının oğuzlara məxsusluğunu bir daha təsdiqləyir.

Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, həmçinin ərazinin coğrafi mövqeyi nəzərə alınaraq Sədərək Şərur rayonunun tərkibindən ayrılaraq ona rayon statusu verilib. Sədərək rayonunun əhalisi 15 min 875 nəfər, ərazisi 151,34 kvadratkilometrdir. Mərkəzi Heydərabad qəsəbəsidir. Rayon Heydərabad qəsəbəsi, Sədərək, Qaraağac və Kərki kənd inzibati ərazi dairələrindən ibarətdir. Sədərək rayonu cənub-qərbdən Türkiyə Cümhuriyyəti ilə (Türkiyə ilə Azərbaycanın həmsərhəd olduğu 15 kilometr məsafə yalnız buradadır), şimal-qərbdən Ermənistanla 24 kilometr, cənub-şərqdən isə İran İslam Respublikası ilə 2 kilometr həmsərhəddir.

Rayonun ərazisi, əsasən, düzənlikdən ibarətdir. Ucubiz, Tejgar, Əjdəhan, Vəlidağ və Saraclı dağ silsilələri təbii sipər kimi Sədərəyi əhatəyə alıb.

Sədərək rayonundakı maili düzənlik Arazboyu düzənliklərdən biridir. 800-940 metr yüksəkliyə malik olan Sədərək düzü cənuba və qərbdən-şərqə doğru meyillidir. Sədərək düzünün mərkəzi hissəsindən kənd təsərrüfatı məqsədləri üçün istifadə olunur.

Türkiyə və İran ilə Sədərək rayonu arasında sərhədboyu Araz çayı axır.

### *Sədərəyin bu günü hər birimizə qürur bəxş edir*

Vaxtilə bu torpağın bərəkətliliyi, təbii sərvətləri, insanların əməksevərliyi yurd yerimizin inkişafına o qədər də təsir göstərə bilməyib. Yaşayış məntəqələri, yollar, xəstəxanalar, məktəblər, uşaq bağçaları bərbad vəziyyətdə olub. Bu da insanları yavaş-yavaş torpaqdan, doğma yurddan uzaq salıb. O dövrdə Naxçıvanın hər bir bölgəsi Sovetlər Birliyinin klassik əyaləti idi və uzaqlardan buraya yolu düşən hər kəs Naxçıvanın inkişafdan geri qaldığını açıq-aşkar görürdü.

Vətənimiz bir ictimai quruluşdan digərinə keçdi, müstəqillik əldə etdik. Ulu öndərimizin Naxçıvana gəlişi ilə qədim diyarda möhtəşəm dəyişikliklərin, inkişafın əsası qoyuldu. İnfrastruktur quruculuğu, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və digər sahələrdə canlanma yarandı. Rəssam da, bəstəkar da, şair də, sadə vətəndaş da bu canlanmanın birbaşa şahidi və iştirakçısı oldu.

1995-ci ildən başlanan yeni inkişaf dövrünü qədirbilən sədərəklilər həmişə böyük minnətdarlıq hissi ilə qeyd edirlər. Çünki məhz həmin tarixdən etibarən Naxçıvanın hər bir bölgəsi kimi, Sədərək də öz inkişafının yeni mərhələsinə qədəm qoydu.

Bu gün bölgələrimizə yolumuz düşəndə ilk diqqətçəkən müasir və yaraşıqlı məktəb binaları olur. Sədərəkdə də buna şahid olduq. Geniş, işıqlı sinif otaqları, laboratoriyaları, fənn kabinələri, elektron lövhəli otaqları, kompüter sinifləri, müasir idman zalları olan bu məktəblər şagirdlərin ixtiyarına verilib, onların elm, bilik dünyasına aparan yollarını işıqlandırıb. Bu yolları ömür yolu seçənlərin sayı ilbəil artır. Onların səsi ölkəmizlə yanaşı, dünyanın bir çox ali təhsil ocaqlarından, elmi-tədqiqat institutlarından gəlir.

Sədərək rayonunda həmsöhbət olduğum yaşlı nəslin nümayəndələrindən Əli Ağayev və Taleh Heydərov belə deyirlər: – Bu gün vəziyyət tamam başqadır. Muxtar respublikamızın hər bir bölgəsində olduğu kimi, Sədərək rayonunun da, demək olar ki, bütün kəndlərində müasir məktəb binaları ucaldılıb. Ən müasir şəraiti olan məktəb binaları... Bu, bütün rayon sakinlərini çox sevindirir. Sevinirik ki, ən ucqar sərhəd yaşayış məntəqələrində, ən kiçik kəndlərdə də belə gözəl təhsil obyektləri inşa olunub. Bu, böyük diqqətdir. Müasirtipli məktəb binaları təhsilin inkişafına göstərilən qayğının ifadəsidir.

Rayon məktəblərində şəraitdən söz düşmüşkən qeyd edək ki, Sədərək kənd 1 nömrəli tam orta məktəb də müasir binası ilə göz oxşayır. Bir vaxtlar top mərmilərinin hədəfi olan bu məktəb binasının divarlarında bu gün bir güllə izi belə, qalmayıb. Düşmənin lap yaxında olduğunu bilsək də, bundan heç kim narahatlıq keçirmir. Hamı bilir ki, bizə qarşı atılacaq hər bir güllənin cavabı veriləcək. Çünki sərhədlərimiz etibarlı şəkildə qorunur.

İnsan sağlamlığı bəşər övladının ən ali arzularından biridir. Bu haqda söhbət gedəndə yada ilk olaraq xəstəxanalar düşür. Son illərdə muxtar respublikada istifadəyə verilən xəstəxana binaları, onların təcrübəli kadrları, ən müasir texnologiyalarla təmin edilməsi dövlətimizin insan amilinə diqqət və qayğısından xəbər verir. Sədərək Rayon Mərkəzi Xəstəxanasında yaradılan şərait də insan amilinə verilən qiymətin daha bir təzahürüdür. Burada dünyanın inkişaf etmiş ölkələrinin xəstəxanalarında tətbiq edilən tibbi avadanlıqlar mövcuddur. Əvvəllər Sədərəkdən kənarda şəfa axtaran sakinlər indi sağlamlıqlarını rayon xəstəxanasında fəaliyyət göstərən həkimlərə etibar edirlər. Nəticə isə göz qabağındadır: Xaricə müalicə üçün üz tutanların sayı ilbəil azalır. Profilaktika, müayinə, diaqnoz və müalicənin düzgün təşkili, peşəkar və yerli tibbi kadrların işə əsl vətəndaş həssaslığı ilə yanaşması bu azalmanın əsas səbəblərindəndir.

Bu gün təkcə Naxçıvan şəhərinin yox, muxtar respublikamızın bütün rayon və kəndlərinin şüşə kimi hamar yolları, müasir inzibati binaları, abad məhəllələri, yaşayış massivləri, bərpadan sonra yeni görünüş alan tarixi abidələri, yaşıl libasa, gül-çiçəyə bürünən park və xiyabanları var. Bütün bu gözəlliklər qədim Nuh yurdunu qonaqlar üçün daha da cəlbedici, muxtar respublika sakinləri üçün isə əmniyyətli və yaşanılacaq yer edir. Sədərəyin keçmişi elə idi ki, qabaqlar burada külək əsəndə, yağış yağanda toz-torpaqdan, palçıqdan durmaq olmurdu. İndi buralar abadlaşdırılıb, park salınıb, kənd sakinlərinin dolanışığı xeyli yaxşılaşıb. Sədərəyə növbəti gəlişimiz zamanı bunun bir daha şahidi olduq.

Gördüklərim onu deməyə əsas verir ki, illər öncə çəkilən əziyyətlərin, keçmişin acı bir xatirəyə çevrilməsinin əsas səbəblərindən biri də mavi yanacaq, elektrik və içməli su təminatı ilə bağlı problemlərin öz həllini tapmasıdır. İndi hər kəs bu problemlərdən uzaqdır, öz gündəlik qayğıları, işi-gücü ilə məşğuldur. İnsanlar indi vaxtını ərzaq, neft növbələrinə deyil, yaşadığı bölgənin daha da inkişafına, abadlaşıb, gözəlləşməsinə sərf edir. Hər kəs məhsuldar fəaliyyəti ilə ümumi işə öz töhfəsini verməyə çalışır.

Bu, mənim Naxçıvanın "dəmir qapı" Dərbəndinə, qeyrət qalasına ilk gəlişim deyil. Yenə də Sədərəyi üç tərəfdən dövrəyə alan vüqarlı dağlara baxıram. Bu dağlar vüqarını Vətən oğullarının bir vaxtlar döyüşlərdə bu torpağa hopan qanından, sevgisindən alır, – deyə düşünürəm. Bir zamanlar barıt qoxusu gələn bu torpaqlardan indi gül-çiçək ətri gəlir. Şair Rövşən Hüseyinovun da qələmə aldığı kimi:

*Sədərək bu yerin Qeyrət qalası,*
*Bir vaxtlar üstünə güllələr yağıb.*
*Qoynunda şırımlar açılan yurdum,*
*İndi sinəsinə gül-çiçək taxıb.*

Düşmənlə çox yaxın mövqedə yerləşən, tarixin müəyyən bir dövrünə kimi doğma Şərurumuzun bir parçası olan, sonradan rayon kimi formalaşan Sədərəkdə yolboyu gördüklərim düşmənin biraddımlığındakı qədim diyarın bugünkü gözəlliyi, əzəməti qəlbimə sevinc gətirdi. Düşmənə gözdağına çevrilən Sədərək əminik ki, hər zaman düşmən qarşısında dağ kimi dayanaraq hər bir muxtar respublika sakininə qürur hissi yaşadacaq.

**✍ Ramiyyə ƏKBƏROVA**

Ziyarətgahlarımız

# Sirli-sehrli, möcüzəvi Əshabi-Kəhf

*Naxçıvan möcüzələr diyarıdır. Hər daşı, torpağı özündə sirlər gizlədən bu ulu yurdun qədim tarixi-mədəni abidələri, muzeyləri, gəzməli-görməli yerləri bu gözəl diyara qədəm qoyan hər kəsi təəccübləndirir. Belə yerlərimizdən biri də möcüzəli görünüşü ilə diqqəti cəlb edən, insanların dini inanclarının qorunub saxlanıldığı "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksidir. Naxçıvan şəhərindən, təxminən, 12-13 kilometr aralı, Culfa rayonu ərazisində yerləşən, Haçadağla Nəhəcir dağı arasındakı təbii mağarada qərar tutan Əshabi-Kəhfi hər gün yüzlərlə insan ziyarət edir.*



Paklığın, müqəddəsliyin rəmzi sayılan ziyarətgah min illərdir ki, bəşər övladını öz ətrafına toplayır. Bu müqəddəs ocaq ümummilli lider Heydər Əliyevin 1998-ci ildə Əshabi-Kəhfin abadlaşdırılması və bərpa edilməsi barədə göstərişindən sonra yenidən qurulub, burada məscid tikilib, yol çəkilib, zəvvarlar üçün hər cür şərait yaradılıb.

Bu yaxınlarda Əshabi-Kəhf ziyarətgahında oldum. Uşaqlıqdan yolumun tez-tez düşdüyü məkan hər dəfə özünün yeni xüsusiyyətləri ilə diqqətimi cəlb edir. Yaxşı xatırlayıram, əvvəllər Əshabi-Kəhfə qədər uzanan yol daşlı, toz-torpaqlı idi. Yağış yağanda isə vəziyyət daha da acınacaqlı olurdu. Son illərdə muxtar respublikamızda həyata keçirilən tikinti-quruculuq işlərinin mühüm bir qolunu təşkil edən yol tikintisindən bu müqəddəs ziyarətgaha gedən yola da pay düşüb. Yolboyu yaradılan yaşıllıqlar isə insanın zövqünü oxşayır.

Ziyarətgaha çatmamış qaynar bulaq adlı məkana baş çəkirik. Bu bulaq Əshabi-Kəhf ziyarətgahının möcüzəvi aləminin başqa bir göstəricisidir. Bulağın üzünə dəmir üzlük çəkilib, ətrafında oturacaqlar quraşdırılıb, suyun axınını təmin edən kiçik hovuzlar tikilib. Bu, Naxçıvanın mineral bulaqlar muzeyinin nümunələrindən biridir. Ziyarətgahdan, təxminən, iki kilometr aşağıda yerləşən qaynar bulağın suyundan müalicə məqsədilə də istifadə edilir.

Tarixi eramızdan əvvəl III-I minilliklərə söykənən ziyarətgahda insan sanki başqa bir aləmə düşür. Min illərin sirrini, möcüzələrini özündə saxlayan bu qocaman dağ qeyri-adi və nəhəng mağaraları ilə sanki insanı öz ağuşuna alır. Bura dünyanın dörd bir yanından turistlər gəlir, bunun da səbəbi ziyarətgahın qədimliyi ilə yanaşı, həm də adının müqəddəs kitabımız "Qurani-Kərim"də çəkilməsidir.

Ziyarətgahdakı məscidin qarşısındakı "qara daş" isə hamının diqqətini cəlb edir. Daşın nə zamandan burada mövcud olması barədə dəqiq məlumat yoxdur. Bura ayaq basan hər bir ziyarətçi həmin daşa toxunur, onun ətrafında dövr edir, niyyət tutur. Beləliklə də, onlar tutduqları niyyətlərin qəbul olunacağına inanırlar.

Məscidin yuxarı tərəfində yerləşən "Damcıxana" açıq salonu xatırladır. Pillələrlə bu yerə qalxdığımız zaman uzaqdan görünən qeyri-adilik insanı bir anlıq dayanıb mənzərəni tamaşa etməyə vadar edir. İlin yağışlı və ya quraq keçməsindən asılı olmayaraq, həmin yerdə həmişə tavandan su damır. İnsanlar daşların üzərində dayanaraq, ya da əyləşərək ürəklərində niyyət tutub gözləyirlər. Damcının başa və ya çiyinə düşməsi niyyətin tez, bədənin hər hansı bir yerinə düşməsi isə nisbətən gec hasil olacağına inam yaradır. Damcı düşməsə, deməli, tutulan niyyət qəbul olunmur.



Ziyarətgahda ən uca yer əvvəllər çıxmaq üçün təhlükəli hesab edilən "Cənnət bağı"dır. Bu gün yaradılan şərait nəticəsində ziyarətçilər dəmir pilləkənlərlə bura rahat qalxa bilirlər. Hər tərəfdən yüksək qayalarla əhatə olunan bu bağ duaların qəbul olunduğu yer sayılır.

Buranı ziyarət etdiyimiz zaman bir çox insanlarla da həmsöhbət olduq. Onların bu müqəddəs məkan haqqında təəssüratlarını öyrəndik. Ziyarətçilər içərisində buraya ilk dəfə gələnlərdən Rusiya vətəndaşı Ruslan İvanov muxtar respublikanın bir sıra tarixi məkanlarını gəzdiyini, getdiyi hər yerin onda xüsusi təəssürat yaratdığını dedi. Burada tarixilik saxlanılmaqla böyük quruculuq işlərinin görüldüyünü vurğulayan rusiyalı turist muxtar respublikanın çox böyük turizm potensialına, hər bir insanın diqqətini cəlb edəcək təbiətə malik olduğunu qeyd etdi: "Naxçıvana gəlib çoxdan haqqında eşitdiyim Əshabi-Kəhfi ziyarət etməmək olmazdı. Bu ziyarətgah məndə Naxçıvanın sirli-sehrli, möcüzəvi bir yer olduğu hissini yaratdı. Dünyadakı müxtəlif dinlərə mənsub olan insanlar bura ziyarətə gələ bilərlər. Bu məkanın çox gözəl müsbət aurası var. Qısa vaxtda burada insanların yerinə yetirdikləri ayinləri öyrəndim. "Cənnət bağı"na qalxıb daşları üst-üstə qoydum, mağaradakı divara niyyət tutub daş yapışdırdım, "Damcıxana"da isə üzərimə su damcısı düşdü. Bura gəlib damcının üzərinə düşməsini gözləyən çox insanı gördükdə möcüzəvi bir məkana gəldiyimi, buranın sirli-sehirli olduğunu bir daha dərk etdim. Ümid edirəm, növbəti dəfə Naxçıvana dostlarımla birgə gələcək və o zaman burada daha çox qalacağam".

İrandan gələn Xədicə Məsud da Əshabi-Kəhfi ziyarət etməkdən sevinc duyduğunu bildirdi. Dedi ki, ziyarətgah ilk andan məni mənəvi-ruhi aləmə apardı. Bura günahların təmizləndiyi, insanı saflaşmağa, bütün ruhi iztirablardan xilas etməyə qadir müqəddəs bir yerdir. Ziyarətgah həm də insanlara xeyirxah əməllər aşılayan bir məkandır. İran saytlarında Əshabi-Kəhf barədə çoxlu məlumatların olması soydaşlarımızı bu müqəddəs məkanla daha yaxından tanış edir, onlar da fürsət tapan kimi Naxçıvana gələrək ziyarətgaha üz tuturlar. Qədimliyi və müasirliyi özündə birləşdirən diyarınızda insanların mehribanlığı, təmizliyə ciddi riayət olunması bir daha göstərdi ki, bura əsl gəzməli, görməli, yaşamalı yerdir.

Türkiyədən ailəsi ilə birlikdə Əshabi-Kəhfi ziyarət etməyə gələn Necati Yılmaz Naxçıvanın dini-mənəvi dəyərlərin qorunub saxlanıldığı yer olduğunu dedi:

– Naxçıvanlılar doğma yurda, onun tarixinə, xalqımızın min illər boyu yaşadılmış milli və mənəvi dəyərlərinə bağlıdırlar. Dünyanın ən müqəddəs yerlərindən sayılan Əshabi-Kəhfi ziyarət etdiyim üçün çox xoşbəxtəm. Türklərdə ulu Tanrıya inam çox güclüdür. Bu gün bu ziyarətgaha gələn yüzlərlə həmyerlim də buranın insanı mənən saflaşdıran müqəddəs bir məkan olduğunu görürlər. Burada ziyarət etdiyim yerlər həmişəlik yaddaşımın dərinliklərində qalacaq. Yaradılmış rahat şəraitə görə minnətdarlığımı bildirirəm.

Bakı şəhərindən gələn Gülşən Məlikova qeyd etdi ki, min illərdən bəri insanlar ürəklərindəki saf, təmiz niyyətlərinin qəbul olunması üçün müqəddəs ziyarətgahlara üz tutur, bununla da dünyadakı ən savab işlərdən onlara da pay düşəcəyinə inanırlar. Əshabi-Kəhf ziyarətgahı da belə müqəddəs yerlərdən biridir. Dünyanın dörd bir yerindən bu müqəddəs məkana gələn zəvvarlar dualarının məhz bu ziyarətgahda Allaha çatdığına, Uca Yaradana bir addım daha yaxın olduqlarına inanırlar. Artıq beşinci dəfədir ki, ziyarət etdiyim bu yerdə mənəvi rahatlıq tapıram. Bura mənim hər il gəlmək istədiyim ziyarətgahlar içərisində birinci sıradadır.

Goranboy rayonundan gələn Gülxanım Əsgərli Əshabi-Kəhfin "Damcıxana" adlanan yerinin möcüzəvi xüsusiyyətlərindən danışır: "Eşitmişdim ki, ürəkdə tutulan arzular buranı ziyarət etdikdə tez yerinə yetir. Çox sevincliyəm, bura qalxan kimi başıma su damcısı düşdü. Bu, o deməkdir ki, niyyətim tezliklə qəbul olunacaq. Ulu Tanrı hamının dualarını qəbul etsin…"

Ziyarətgahın yaxınlığında yerləşən hədiyyə və ərzaq mağazaları da bura üz tutanların xidmətindədir. Burada yerli məhsullar təqdim olunur. Ziyarətgahın ərazisində "Qonaq evi", "Bələdçi otağı" da fəaliyyət göstərir. Burada yaradılan hər bir şərait insanların rahatlığına xidmət edir.

Dünya əhəmiyyətli məkan olan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi Naxçıvanın nə qədər qədim tarixə malik olduğu faktını bir daha təsdiqləyir. 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvana gələn çoxsaylı qonaqlar da bu müqəddəs məkanı ziyarət edir, buradan xoş təəssüratlarla ayrılır, bu torpağın qədimliyinin bir daha şahidi olurlar.

*Biz də bu müqəddəs məkandan – Əshabi-Kəhf ziyarətgahından zəngin təəssürat və xoş duyğularla geriyə, Naxçıvan şəhərinə doğru yol aldıq…*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***Masamın üstündə çapdan yeni çıxmış "Mənim Naxçıvan dünyam" adlı kitabla üz-üzə, göz-gözəyəm. Müəllifi "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədovdur. Onun 60 yaşına hesabatı olan kitabında son illər müxtəlif mətbuat orqanlarında dərc edilmiş publisistik yazıları yer alıb. İctimai həyata fərqli rakurslardan yanaşan müəllifin məqalə, reportaj, müsahibə, zarisovka və esselərinin əsas qayəsini Vətənə, torpağa məhəbbət hissləri təşkil edir. Yazılardan yaranan ilkin təəssürat belədir ki, Vətəni sevmək, sadəcə, torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir.***

Yeni nəşrlər

# Mənim Naxçıvan dünyam




Doğulduğun el-obadan, dağının, dərəsinin min bir çiçək çələngindən sinənə çəkdiyin ətrindən, dupduru bulaqlarından içdiyin sudan, insanlara sevgi yarpaqlayan çinarlardan, yaşıl düzlərindən, başı ağ çalmalı dağlarından başlanır Vətən. Vətən o zaman Vətən olur ki, onun uğrunda canından keçməyə hazır olan, inkişafına, tərəqqisinə çalışan övladları var. "Vətənə, xalqa, dövlətə bağlılıq yolu" adlı yazısında qeyd etdiyi kimi: "Təzadlarla dolu olan yaşadığımız həyatda insan ömrü çox qısadır. Ulu Dədə Qorqud deyirdi: "Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya". Məsələ bu qısa zaman kəsiyində ömrü elə yaşamaqdır ki, cəmiyyət üçün faydalı işlər görə biləsən. Bu ömrü kamil insanlar öz yaxşı əməlləri ilə, necə deyərlər, uzada bilərlər. Həmin əməllərin fövqündə dayanan isə Ulu Tanrının bizə bəxş etdiyi ömrü doğruluqla başa vurmaq, həyatda doğru yol tutmaqdır".

Müəllifin hər bir yazısı qəlbinin dərinliklərindən su içir. O, yalnız gördüyü, inandığı, dürüstlüyünə əmin olduğu mövzuları qələmə alır və beləcə də yazır: "Doğruluq ciddi əxlaqi məsələdir. Bu hiss, bu mənəvi keyfiyyət insanın daxili təmizliyidir, saflığıdır, mənsub olduğu xalqa sevgi və məhəbbətdir, dövlətə və dövlətçiliyə sədaqətdir. Doğruluq obyektivlik meyarıdır, insan əməyinin əsl qiymətini verən ölçüdür. Yalnız bu yolla güclü şəxsiyyətə çevrilmək olar".

Muxtar müəllimin jurnalistikada keçən ömrünün ən məhsuldar dövrü yeni kitabında öz əksini tapır. Tarixi varislik əlaqələrinə əsasən xalqımızın uzun əsrlər boyu formalaşmış elmi, mədəni və mənəvi dəyərlərinin davam etdirilməsi, ictimai-siyasi fikrin və ədəbi-bədii prosesin daha da genişləndirilməsi bu yazıların ruhunu təşkil edir. Məqalələrin əksəriyyəti istər emosionallığı, istər hiss və həyəcanların bədii təsvirindəki orijinallığı, istər cəsarəti, istərsə də müəllif yanaşmasının qeyri-adiliyi ilə diqqət çəkir və yaddaşda qalır. Müəllif görüntünü bütün gözəlliyi və detalları ilə obrazlı təsvir etməyə çalışır və istəyinə nail olur.

Muxtar Məmmədovun publisistikası həm də elmi təfəkkürü özündə bütöv şəkildə təcəssüm etdirməsi, canlandırması, nəticədə isə oxucu kütləsinə daha güclü, effektiv təsiri ilə fərqlənir, seçilir. Onun müraciət etdiyi mövzular ümumbəşəri problemlərə xor baxmayan bir milliliyə, fəlsəfi lirizmə, poetik pafosa söykənir və müəllifin qələmində analitik təfəkkür süzgəcindən keçir. Qələmə aldığı mövzular olduqca aktualdır, müəllif qələmiylə tarixin keçmiş səhifələrində gəzişərkən belə, toxunduğu məsələlər yaşadığı çağdaş dövrün qayğıları, problemləriylə tam səsləşir.

Kitabda "Müsahibələr", "Bir-birinə bənzəməyən həyat yolları", "Sərbəst", "Esselər", "Stolüstü kitablarım", "Qarış-qarış gəzdiyim yurd yerləri" bölmələri altında toplanan hər bir yazıda Azərbaycan dövlətçiliyinə sədaqət, mənəvi dəyərlərin qorunması ana xətti təşkil edir. "Heydər Əliyev mübarizliyi xalqımızı düşdüyü bəlalardan qurtardı", "Vətən, dövlət, millət ən böyük milli dəyərlərimizdir", "Bəşər sivilizasiyasının başlanğıc məkanı: Naxçıvan" və digər yazılar müsahibə janrında olsa da, ulu öndər Heydər Əliyevin əzəmətli portreti müəllif tərəfindən məharətlə yaradılır. Söhbət əsnasında ulu öndərin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 90-cı illərin acılı-şirinli mənzərələri göz önündən keçir. Bu əhvalatların təsvirində bədiilik də var, obrazlılıq da. Qələmə alınan əhvalatlarla reallıq arasında aparılan paralellər də uyarlıdır və bir Şəxsiyyətin böyüklüyünü, xarakterini, gördüyü işlərin əhəmiyyətini çatdırmaq baxımından da diqqət çəkir. Bu xarakterli yazıların əksəriyyətində tarixə müraciət var. Amma hər müraciətdə bir bədiilik, hər yazıda əvvəlcədən qurulmuş kompozisiya, süjet axıcılığı və hər sonluqda vurulan bir məntiqi yekun mövcuddur. Bir də gözlənilməz keçidlər. Müəllif hər dəfə məqaləyə elə bir tərzdə giriş verir ki, söhbətin tamamilə başqa istiqamətə, başqa mövzuya gedəcəyini düşünürsən, amma birdən-birə gözlənilməz bir keçid onu düşündüyündən daha ciddi istiqamətə, daha ciddi yönə doğru aparır. Sadalanan bütün bu xüsusiyyətlər isə publisistik material üçün vacib olan elementlər, Muxtar müəllimin yazılarını oxunaqlı edən, onları digər yazılardan fərqləndirən çalarlardır. Akademik Zərifə xanım Əliyevadan bəhs edən "Böyük ana haqqında düşüncələr"də olduğu kimi: "Çoxumuza əlçatmaz kimi görünən ucalıq adlı bir zirvəni fəth etmək hamıya qismət olmur. Çünki bu zirvəyə gedən yol hamar deyil, dolaylardan keçir. Çünki bu zirvəyə gedən yolun hər addımı Vətənə, torpağa, xalqa, insana bağlılıqdan, dar ayaqda ona arxa durmaqdan, ömrünün mənasını bu yolda görməkdən qurulmalıdır. Məhz bu vaxt qazanılan hər nə varsa, onun sevinci insan ömrünə fərəh gətirir. Bu sevinc də, fərəh də qəlblərdə daim yaşayır, xatırlanır".

Kitabın "Esselər" bölməsində toplanan yazılarda informasiya bədii yanaşma ilə müşayiət olunur. "Azadlıq elə bir şirin nemətdir ki, o, özünə, tarixi keçmişinə, soykökünə hörmət etməyi bacaran xalqların qismətinə düşür. O xalqların övladları da vətənpərvər böyüyürlər, doğulduqları yurd yeri onlar üçün səcdəgah qədər qiymətli olur. Belələri öz yurdunun azadlığa qovuşması yolunda canlarından keçməyi şərəf işi hesab edirlər. Çünki azadlıq heç kəsə elə-belə verilmir, qazanılır. Bu yolda qanlar tökülür, qurbanlar verilir. Şəhidlik zirvələri fəth olunur. Elə xalqın azadlıq, müstəqillik tarixi də onda yazılır".

*Yeni kitab oxuculara müəllifin 60 yaşı haqladığı bir vaxtda təqdim olunur. Mən bu kitabı Muxtar müəllimin 60 illiyinə bir yaradıcılıq hesabatı kimi dəyərləndirir, əziz dostumu, sənətinin cəfakeşi olan səmimi insanı ürəkdən təbrik edir, arzularına qovuşmasını diləyirəm.*

**Hüseyn ƏSGƏROV**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

Mütəxəssis sözü

# Keyfiyyətli toxum məhsuldarlığa təsir göstərən başlıca amildir

*Taxılçılıqda yüksək məhsuldarlıq əldə olunmasında rayonlaşdırılmış perspektivli sortların toxumlarından istifadə edilməsi önəmlidir. Əkiləcək torpaq sahələrinin təsnifatına və eyni zamanda sələfinə görə düzgün seçilməsi də xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə muxtar respublikanın torpaq-iqlim şəraitini və torpaq tiplərini nəzərə alaraq əkin atlasları hazırlanaraq aidiyyəti təşkilatlara təqdim olunub.*



Səpin üçün keyfiyyətli toxum materialının hazırlanması uzunmüddətli və məsuliyyətli bir işdir. Toxum üçün ayrılmış sahələr yüksək aqrotexniki qaydada becərilməli, sortların bioloji xüsusiyyətləri nəzərə alınmaqla gübrələnməli, səpin optimal müddətdə, düzgün təyin edilmiş normada və qısa vaxt ərzində aparılmalıdır. Səpin normasının adi əkinlərdən 10-15 faiz aşağı olması məsləhətdir.

Toxum sahədən daşındıqdan sonra mexanikləşdirilmiş toxumtəmizləyən aqreqatlardan keçirilməlidir. Təmizlənmə prosesində qarışıqlar, yarpaq və gövdə qalıqları, torpaq hissəcikləri, zədələnmiş və qırılmış toxumlar, alaq otlarının toxumları və sair ayrılmalıdır. Qeyd etmək lazımdır ki, toxumun təmizlənmədən uzun müddət qarışıqlarla bir yerdə saxlanması onun qızışmasına və nəticədə, səpin keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Odur ki, toxum xırmana daşındıqdan sonra təcili təmizlənməyə verilməlidir. Bundan sonra toxumlar tələb olunan səviyyəyədək qurudulmalıdır. Çünki toxumun rütubətliliyi çox olduqda onda tənəffüs prosesi güclənir, rütubət, istiliyin miqdarı artır və bunun nəticəsində qızışma baş verir ki, bu da toxumun cücərmə qabiliyyətinə və digər keyfiyyətlərinə mənfi təsir göstərir. Əgər toxum nəmdirsə,onu sahədən daşıyarkən adi qaydada xırmanda sərib qurutmaq, lazımi rütubətliliyə (14-15 faiz) çatdırdıqdan sonra təmizlənməyə buraxmaq lazımdır. Toxum təmizləndikdən və qurudulduqdan sonra sortlaşdırılır. Burada əsas məqsəd səpin materialını yüngülçəkili toxumlardan təmizləməkdir. Bu tədbir 1000 dənin kütləsinin artmasına, eynicinsli və eyniçəkili toxum fraksiyası əldə etməyə imkan yaradır. Bunun üçün toxumtəmizləyən aqreqatlardan istifadə olunmalıdır.

Toxumlar sortluq və əkin keyfiyyətinə görə qiymətləndirilir. Sortluq keyfiyyəti dedikdə, sortun özünəməxsus əlamət və keyfiyyəti nəzərdə tutulur. Səpin keyfiyyətinə isə təmizliyi, cücərməsi, rütubətliliyi, 1000 dənin çəkisi, ziyanverici və xəstəliklərə davamlılığı kimi amillər daxildir.

Standarta görə, əsas bitkinin toxumunun təmizliyi 97 faizdən az olmamalıdır. Toxumlar səpin keyfiyyətinə görə kateqoriyalara bölünür. Məsələn, yumşaq buğda toxumlarının səpin keyfiyyətinə görə göstəriciləri I sinfin təmizliyi 99 faiz, cücərməsi 95 faiz, II sinif müvafiq olaraq 98 faiz və 92 faiz, III sinif isə 97 faiz və 90 faiz olmalıdır. Əkin keyfiyyətinə görə I, II və III siniflərə aid toxumlar "kondisiyalı toxumlar" adlanır.

Toxumların cücərmə qabiliyyəti də yüksək olmalıdır. Onların cücərmə qabiliyyəti 85 faizdən aşağı olanı səpin üçün istifadəsiz sayılır. Toxumların rütubətliliyi quru dənin çəkisinə nisbətən faizlə ifadə olunur. Tərkibində 14 faizdən çox rütubət olmayan toxumlar saxlanıldıqda əlverişsiz şəraitə yaxşı davam gətirir. Rütubətliliyi normadan yüksək toxumların isə cücərmə qabiliyyəti azalır, keyfiyyəti aşağı düşür, onlar xəstəlik və ziyanvericilərə asan tutulur. Uzun müddət saxlanılan, normal rütubətliliyə malik dənlərdə tənəffüs prosesi normal gedir, çürüməyə baş vermir, mikroorqanizmlər (kif göbələyi və bakteriyalar) onu zədələyə bilmir. Buğda, arpa, çovdarın tərkibində 14 faizdən çox rütubət olmamalıdır.

Toxumların çəkisi onların mütləq, yəni 1000 dənin çəkisi ilə təyin edilir. Onun çəkisi nə qədər çox olarsa, məhsuldarlıq da azçəkili toxumlara nisbətən yüksək olar. Adətən, səpin üçün 1000 dənin çəkisi 42-44 qram olduqda normal hesab edilir.

Səpin üçün ayrılan dənlər eyni irilikdə olmalıdır. Əkstəqdirdə, sünbüllərdə boyca bərabər olmayan toxumlar əmələ gəlir. Belə ki, sünbülün orta hissəsində dənlər iri, üst və alt hissəsində isə xırda olur. Bunları döydükdə eyni çəkidə olmayan dənlər alınır. Səpin belə dənlərlə aparılarsa, cücərtilər eyni vaxtda çıxmaz. Ona görə də toxum başqa kondisiyalı qarışıqlardan təmizlənməli, cücərmə qabiliyyəti, mütləq çəkisi yüksək dənlər bir boyda olmalı, xəstəlik və ziyanvericilərə yoluxmamalıdır. Toxumlar çeşidləmə vasitəsilə bərabərləşdirilir.

Toxumluq materialın səpin keyfiyyətini xarakterizə edən amillərdən biri də onların xəstəlik və ziyanvericilərə qarşı davamlı olmalarıdır. Dənli taxıl bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etmək üçün bu bitkilərin toxumlarının sağlam və yüksək kondisiyalı olması təmin edilməlidir. Toxum materialının fitopatoloji ekspertizası göstərir ki, onlar bir çox bakteriyalar, viruslar və digər xəstəliklərin törədiciləri ilə yoluxur. Bu xəstəliklərin təsiri nəticəsində toxumun cücərmə faizi və keyfiyyəti aşağı düşür, nəticədə, səpin normasına düzgün əməl edilsə də belə sahədə istənilən sayda sağlam cücərti alınması mümkün olmur.

Toxumla yayılan göbələk xəstəliklərinə qarşı mübarizə işinin toxumluq üçün ayrılmış sahələrdən başlanması məsləhət görülür. Əvvəlcə həmin sahələrin bərk və tozlu sürmə xəstəlikləri ilə sirayətlənməsinə xüsusi nəzarət etmək lazımdır. Seçim zamanı toxumluq sahələrdən götürülmüş sünbüllərdə bu xəstəlik aşkar olunarsa, həmin sahələrdən götürülmüş məhsul səpin üçün yararsız hesab olunur və onun səpilməsinə icazə verilmir.

Onların qarşısını almaq və ona qarşı mübarizə aparmaq üçün səpiləcək materialın dərmanlanması ən vacib təsərrüfat tədbirlərindən biridir. Dərmanlanması 2 müddətdə, səpinqabağı və səpindən xeyli əvvəl aparmaq məsləhət görülür.

Toxum materialını səpinə 1-3 ay qalmış dərmanlamaq daha səmərəli və keyfiyyətli üsul hesab edilir. Çünki bu zaman həm dərmanın məsarif norması azalır, həm də onun təsir gücü artır. Bu, mütləq və zəruri tədbirdir. Həmin tədbirin bütün təsərrüfatlarda aparılması vacibdir.

Əkiləcək toxumdan nümunələr götürüb toxum müfəttişliyinin laboratoriyasında analiz edilməlidir. Analiz sənədində toxumun cücərmə qabiliyyəti, təmizliyi, sinfi, 1 kiloqram toxumun içərisindəki alaq toxumlarının sayı, 1000 ədəd dənin çəkisi, toxumun təsərrüfat yararlılığı, xəstəlik və zərərvericilərlə sirayətlənmə dərəcəsi və digər göstəricilər qeyd olunur. Bu sənədə görə, səpin dövründə toxumun səpin norması müəyyənləşdirilir.

Təcrübələrlə müəyyən edilmişdir ki, taxıl əkinlərinin keçirilməsi zamanı kondisiyalı toxumlardan istifadə etməklə optimal müddətdə əkin aparılması kimi tədbirlər o zaman yüksək nəticə verir ki, əkiləcək toxum yerli torpaq-iqlim şəraitinə uyğunlaşmış, yəni rayonlaşdırılmış sortlarla aparılsın. Muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış buğdanın "Dağdaş", "Quality", "Bezostaya-1", "Qiymətli", "Gilavar", "Ceyhan-99", "Qobustan", "Güvən-2", "Sönməz 2000", "Renan" və sair, arpanın "Naxçıvandəni", "Qarabağ-22, "Qarabağ-7", "Cəlilabad-19" sortlarından istifadə edilməsi məsləhətdir. Taxılçılıqla məşğul olan sahibkarlar bu sortları muxtar respublikada fəaliyyət göstərən "Bərəkət", "Araz" Elm-İstehsalat Birliyi, "Sədi", Şərur Aqrotexservis, "Təbriz" toxumçuluq təsərrüfatlarından əldə edə bilərlər.

**Ədalət HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması və onlardan istifadə qaydalarının pozulması hansı hüquqi nəticələrə səbəb olur?*

***Cavab:*** Bununla bağlı İnzibati Xətalar Məcəlləsində qeyd olunur ki, təbii qazın, elektrik və ya istilik enerjisinin talanması nəticəsində az miqdarda ziyan vurduqda fiziki şəxslər 100 manatdan 150 manata qədər, vəzifəli şəxslər 800 manatdan 1000 manata qədər, hüquqi şəxslər isə 2000 manatdan 2500 manatadək cərimə edilir. Burada "az miqdarda" dedikdə 1000 manata qədər dəyən ziyan əsas götürülür.

İnzibati Xətalar Məcəlləsində təbii qazın, elektrik və ya istilik enerjisinin istifadə qaydalarının pozulmasına görə də məsuliyyət nəzərdə tutulmuşdur. Həmin inzibati xətaya yol vermiş fiziki şəxslər 30 manatdan 40 manata, vəzifəli şəxslər 70 manatdan 90 manata, hüquqi şəxslər isə 250 manatdan 300 manata qədər cərimələnirlər.

Cinayət Məcəlləsində qeyd olunur ki, təbii qazın, su təchizatı, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulmaqla bu resursların talanması, xeyli miqdarda ziyan vurmaqla törədildikdə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır. Həmin əməllər külli miqdarda ziyan vurmaqla törədilərsə, bu cinayəti törədən şəxslər dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Həmin əməllər, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Təbii qaz, su, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin səlahiyyətli nümayəndəsinin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi səbəbindən qeyd olunan əməllərin qarşısının alınmaması üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Təbii qaz, su, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin səlahiyyətli nümayəndəsinin xidməti mövqedən sui-istifadə etməklə tamah və ya sair şəxsi marağı üzündən nəzərdə tutulmuş əməllərin qarşısını almamışdırsa, dörd min manatdan altı min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

# Ekskursiya təşkil edilib



*İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbinin bir qrup idmançısının Qarabağlar Türbə Kompleksinə ekskursiyası təşkil olunub.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 40-a yaxın idmançı iştirak edib.

Bələdçi Gülçin Ağayeva idmançılara abidə haqqında geniş məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi də elmi və tarixi əsaslarla bərpa edilib.

Sonra ekskursiya iştirakçıları türbə kompleksinin zalında nümayiş etdirilən eksponatlarla tanış olublar. Burada sərgilənən mis qablar, daş dəstər, XIX əsrə aid mis məişət əşyaları və XII-XVII əsrlərdə istifadə olunan qədim mis və gümüş sikkələr, o cümlədən kətan üzərində yağlı boya ilə işlənmiş "Qarabağlar türbəsi" rəsmləri idmançılar tərəfindən maraqla qarşılanıb. Sonda idmançıları maraqlandıran suallar bələdçi tərəfindən cavablandırılıb.

# Növbəti mərhələyə yüksələn komandalar məlum olub

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə gənclərdən ibarət kənd komandaları arasında təşkil edilən futbol üzrə şəhər və rayon birinciliyində növbəti turun oyunlarına yekun vurulub.*



Naxçıvan şəhəri üzrə keçirilən birincilikdə növbəti mərhələyə Qaraçuq kənd komandası yüksəlib. Onlar Bulqan kənd komandasını məğlub etməyi bacarıblar – 9:2. Şərur rayonu üzrə iki görüş keçirilib. Belə ki, Xələc kənd komandası Aşağı Yaycını (4:0), Kürçülü kənd komandası isə Çərçiboğan komandasını (6:5) məğlub edərək növbəti mərhələyə yüksəliblər. Babək rayonu üzrə Kültəpə komandası Cəhri (3:0), Şahbuz rayonu üzrə Kolanı komandası Biçənək (3:0), Culfa rayonu üzrə isə Xanəgah komandası Saltaq komandaları (3:0) üzərində eynihesablı qələbəyə seviniblər. Ordubad rayonu üzrə Əndəmic komandası "Ordubad gənclər birliyi" (2:1), Kəngərli rayonu üzrə Qıvraq qəsəbə komandası Yurdçu (6:1), Sədərək rayonu üzrə isə Sədərək komandası Sədərək-1 komandaları (6:4) üzərində qələbə qazanıblar.

Qeyd edək ki, şəhər və rayonlar üzrə I, II, III yerləri tutmuş komandalar kubokla, həmin komandaların üzvləri və oyunu idarə edən hakimlər Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 584